II BÖLMƏ.
MİLLİ İQTİSADİYYATIN VƏ YÜNGÜL SƏNAYENİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

UOT 334.021

Mübariz Məmmədhüseyn oğlu BAĞIROV
Azərbaycan Dövlət İqtisad Universiteti
“Maliyyə və audit” kafedrası, professor, i.e.d.

Nurlan İlham oğlu ABDULLAZADƏ
Azərbaycan Dövlət İqtisad Univerisitetinin doktorantı
https://doi.org/10.30546/4.71.73001.2025.002.047

MİLLİ İQTİSADİYYATIN STRUKTURUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycanın milli iqtisadiyyatının strukturunun formalaşmasına təsir edən əsas xüsusiyyətləri, iqtisadi inkişafda neft-qaz sektorunun rolu və qeyri-neft sektorunun inkişafı istiqamətində görülən tədbirləri araşdırmaq, həmçinin dayanıqlı və adaptiv iqtisadi siyasətin milli iqtisadiyyatın davamlı inkişafına təsirini təhlil etməkdir.

Tədqiqatın metodologiyası - milli iqtisadiyyatın strukturunun formalaşmasına təsir edən təbii resurslar, tarixi inkişaf mərhələləri və dövlətin iqtisadi siyasəti kimi amillərin təhlili ilə yanaşı, statistik məlumatların (ÜDM, yoxsulluq səviyyəsi, sektorların payı və s.) müqayisəsinə əsaslanır. Təhlil prosesində rəsmi mənbələr və mövcud tədqiqatlardan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Azərbaycan iqtisadiyyatının inkişafında formalaşmış uğurlu iqtisadi siyasətlərin və struktur dəyişikliklərinin öyrənilməsi əsasında gələcəkdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və dayanıqlı inkişaf məqsədlərinə uyğun siyasətlərin planlaşdırılması üçün tövsiyələr təqdim etməkdən ibarətdir.

Tədqiqatın nəticələri - Tədqiqatın nəticələri göstərir ki, Azərbaycan iqtisadiyyatı neft və qaz sektorundan əldə edilən gəlirlər əsasında inkişaf etmiş, lakin son illərdə qeyri-neft sektorunun artan rolu, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf məqsədlərinə yönəlmiş adaptiv iqtisadi siyasət sayəsində daha balanslı və davamlı bir struktur formalaşdırmışdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Tədqiqatda Azərbaycan iqtisadiyyatının son onilliklərdə adaptiv xarakter daşıyan struktur xüsusiyyətləri, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf məqsədlərinə yönəlik siyasətin təsirləri kompleks şəkildə təhlil edilmişdir. Bu yanaşma milli iqtisadiyyatın müasir çağırışlara uyğun transformasiyasını əhatəli şəkildə göstərir.

Açar sözlər: Azərbaycan iqtisadiyyatı, qeyri-neft sektoru, iqtisadi şaxələndirmə, dayanıqlı inkişaf, yaşıl enerji.

Giriş

Son onilliklərdə Azərbaycan iqtisadiyyatı müstəqilliyinin ilk illərində yaşanmış iqtisadi böhranın miras qoyduğu problemləri aradan qaldıraraq sürətli inkişaf mərhələsinə daxil olmuşdur və dünyanın ən yüksək iqtisadi artım tempinə malik olan ölkələrindən birinə çevrilmişdir. Bu dövrdə dövlətin həyata keçirdiyi iqtisadi siyasət əsasən iqtisadiyyatın həcminin genişləndirilməsinə, sosial-iqtisadi problemlərin aradan qaldırılmasına, əhalinin rifah halının yaxşılaşdırılmasına, müxtəlif sahələrdə zəruri infrastrukturun formalaşdırılmasına imkan yaratmışdır. Bunun nəticəsidir ki,

Dünya Bankının hesablamalarına görə, 2003-2022-ci illərdə Azərbaycanda Ümumi Daxili Məhsul (ÜDM) 4 dəfə, adambaşına düşən ÜDM isə 3.2 dəfə artmışdır [1]. Bundan başqa, Azərbaycan 2002-ci ildəki aşağı orta gəlirli ölkələr qrupundan 2022-ci ildə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olmuşdur. İqtisadi siyasətdə sosial istiqamətə xüsusi diqqətin ayrılması isə 2003-cü il ilə müqayisədə yoxsulluq səviyyəsinin 50%-dən 5.5%-ə qədər azalmasına gətirib çıxarmışdır [7]. Bununla yanaşı, dövlətin sosial siyasəti səhiyyə və təhsil sahələrində də əhəmiyyətli islahatlara səbəb olmuşdur. Yeni iqtisadi modelin tətbiqi işsizliyin azalmasına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxarmışdır. İqtisadiyyatın rəqəmsallaşdırılması və innovativ texnologiyaların geniş tətbiqi ilə Azərbaycan qlobal iqtisadiyyatda daha güclü mövqe tutmağa başlamışdır. Bu inkişafın fonunda, dövlət iqtisadiyyatın davamlı inkişafını təmin edən mühüm layihələr həyata keçirmişdir. Eyni zamanda, ətraf mühitin qorunması və dayanıqlı inkişaf prinsipləri də dövlətin iqtisadi siyasətində mühüm yer tutmağa başlamışdır. Bu çərçivədə həyata keçirilən layihələr, sosial sahələrdə keyfiyyətli dəyişikliklər yaradaraq, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına böyük töhfələr vermişdir. Dövlətin səhiyyə sahəsində atdığı addımlar, tibbi xidmətlərin keyfiyyətini yüksəltmiş və səhiyyə infrastrukturunun inkişafını təmin etmişdir. Təhsil sahəsindəki islahatlar isə həm tədris proqramlarının modernləşdirilməsinə, həm də təhsil müəssisələrinin qlobal standartlara uyğunlaşmasına yönəlmişdir. Azərbaycanın sosial siyasətində həyata keçirilən yeniliklər, xüsusilə gənclərin və qadınların əmək bazarına inteqrasiyasını sürətləndirmiş və cəmiyyətdəki bərabərliyi artırmışdır. Bu yanaşmalar ölkənin iqtisadi və sosial inkişafını həm daxili, həm də beynəlxalq miqyasda daha da gücləndirmişdir.

İqtisadi sahədə qeyd edilən nailiyyətlərin əldə edilməsində uğurlu neft strategiyası vasitəsilə əldə edilən gəlirlərin səmərəli şəkildə iqtisadi inkişafa transformasiya edilməsi böyük rola malik olmuşdur. Neft gəlirləri imkan vermişdir ki, Azərbaycan iqtisadi böhranı aradan qaldırsın, iqtisadiyyatın digər sahələrinin inkişafı üçün zəruri infrastruktur formalaşdırsın və əhalinin sosial rifah halını əsaslı şəkildə yaxşılaşdırsın [6]. Neft gəlirləri hesabına formalaşdırılan zəruri infrastruktur sonrakı mərhələdə qeyr-neft sektorunun inkişafına şərait yarada bilən iqtisadi mühitin formalaşdırılmasına imkan vermişdir. Bunun nəticəsidir ki, qeyri-neft sektorunun iqtisadiyyatda payı əsaslı şəkildə artmış, və bu sektorun artım tempi neft sektorunun artım tempini üstələmişdir. Qeyd edilən iqtisadi proseslər isə öz növbəsində Azərbaycan iqtisadiyyatının strukturunun formalaşmasına əsaslı şəkildə təsir etmiş və neft sektoru bu prosesdə əsas rola malik olmuşdur. Son illərdə isə qeyri-neft sektorunun inkişafı milli iqtisadiyyatın strukturuna təsir etmiş, neft və qaz sektorunun dominant rolunun zəifləməsinə imkan yaratmışdır. Qeyri-neft sektorunun inkişafı ilə paralel olaraq, yüksək texnologiyalar və rəqəmsal iqtisadiyyat sahələrində müsbət irəliləyişlər müşahidə edilmişdir. Sənaye və kənd təsərrüfatı sahələrində həyata keçirilən islahatlar da qeyri-neft sektorunun inkişafını dəstəkləmişdir. Neft gəlirlərinin səmərəli idarə edilməsi gələcək nəsillər üçün dayanıqlı iqtisadi baza yaradılmasına şərait yaratmışdır. Nəticədə, Azərbaycanın iqtisadi diversifikasiyası ölkənin beynəlxalq bazarlarda daha müstəqil və rəqabətədavamlı mövqeyini gücləndirmişdir. Yeni iqtisadi siyasət və strateji proqramlar həm daxili, həm də xarici investisiyaların cəlb edilməsinə müsbət təsir göstərmişdir. İnfrastruktur layihələrinin uğurla həyata keçirilməsi Azərbaycanın beynəlxalq əməkdaşlıq imkanlarının əsaslı şəkildə artmasına gətirib çıxarmışdır.

Milli iqtisadiyyatın strukturunun formalaşmasında neft və qaz gəlirlərinin rolu

Azərbaycan iqtisadiyyatının strukturunu bir neçə əsas xüsusiyyəti ilə xarakterizə etmək olar. Bu xüsusiyyətlərin formalaşmasına ölkənin sahib olduğu təbii resursları, tarixi inkişaf mərhələləri, dövlətin iqtisadi siyasəti və digər amillər təsir etmişdir. Azərbaycanın sahib olduğu neft və qaz ehtiyatları onun iqtisadi strukturunun formalaşmasına birbaşa təsir etmişdir. Bu ehtiyatlar ölkənin iqtisadi inkişafına birbaşa təsir göstərmiş, sənaye sektorunun formalaşmasına və dövlət gəlirlərinin əsas mənbələrindən birinə çevrilməsinə səbəb olmuşdur. Bu ehtiyatların kəşfi, hasilatı və ixracı iqtisadiyyatın əsas dayaqlarından biri kimi çıxış edərək, ölkənin enerji təhlükəsizliyini təmin etməklə yanaşı, beynəlxalq bazarlarda da mühüm mövqeyə sahib olmasına şərait yaratmışdır. Neft və qaz sənayesinin inkişafı ilə əlaqədar olaraq, infrastruktur layihələri genişlənmiş, yeni texnologi-

yalar tətbiq olunmuş və əmək bazarında yüksək ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac yaranmışdır. Nəticədə, bu sektor Azərbaycan iqtisadiyyatının inkişafında həlledici rola malik olmaqla yanaşı, ölkənin sosial rifahına və beynəlxalq iqtisadi əlaqələrinə də əhəmiyyətli təsir göstərmişdir. Neft və qaz sektoru həm ölkənin ÜDM-nin, həm də xarici ticarət dövriyyəsinin formalaşmasında böyük rola malikdir ki, bu da həmin sektoru maliyyə gəlirlərinin əsas mənbəyinə çevrimişdir. Nəticədə, 2008-ci ildə neft və qaz sektorunun ÜDM-də payı 60% səviyyəsində olmuşdur [8]. ÜDM-in formalaşmasında təkcə neft və qazın birbaşa ixracı deyil, eyni zamanda bu sektor ilə əlaqəli olan müxtəlif kimya sənayesi məhsullarının istehsalı da təsir edir. ÜDM ilə yanaşı ixracda da neft və qaz məhsullarının payı kifayət qədər yüksək səviyyəyə çatmış və son illərdə müəyyən qədər azalmışdır. Belə ki, ixracda neft və qaz məhsullarının payı 2018-ci ildə 91% səviyyəsini ötmüşdür [2].

Neft və qaz sektoru iqtisadiyyatın əsas sahəsinə çevrilməklə yanaşı digər sahələrin inkişafı üçün də drayver rolunu oynamışdır. Qeyri-neft sektorunun inkişafı üçün neft və qaz sektorundan əldə edilən gəlirlər ilkin investisiya mənbəyi kimi çıxış etməklə bu sektorun sonrakı mərhələlərdə inkişafına və iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsinə dəstək vermişdir. Neft sektorundan əldə edilən gəlirlər hesabına formalaşdırılmış zəruri infrastruktur da digər sektorların inkişafına ciddi şəkildə tövhə vermişdir. Son illərdə Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı məqsədilə müvafiq islahatlar həyata keçirilmişdir. Eyni zamanda, İnfrastruktur layihələrinin genişləndirilməsi və iqtisadi diversifikasiya qeyri-neft sektoru üçün yeni perspektivlər açmışdır. Eyni zamanda, turizm, kənd təsərrüfatı və informasiya texnologiyaları sahələrində artım müşahidə edilməkdədir. Azərbaycanın inkişaf planlarında qeyri-neft sektorunun payının artırılması əsas prioritetlərdən birinə çevrilmişdir. Bundan əlavə, dövlətin iqtisadi siyasəti qeyri-neft sahələrinə investisiyaların cəlb edilməsi və bazar rəqabətinin gücləndirilməsinə yönəldilmişdir. Gələcəkdə qeyri-neft sektorunun daha da inkişafı Azərbaycanın iqtisadiyyatının dayanıqlılığını və rəqabətədavamlılığını artıracaqdır.

İqtisadi inkişafda dövlətin rolu və davamlı iqtisadi siyasət

Azərbaycanda milli iqtisadiyyatın strukturunun xarakterik cəhətlərindən biri də iqtisadi inkişafda dövlətin rolunun böyük olmasıdır. Dövlətin iqtisadiyyatda rolunun güclü olmasını Azərbaycanın 90-cı illərin əvvəllərindən etibarən keçdiyi tarixi inkişaf mərhələləri və bu mərhələlərdə iqtisadi təhlükəsizliyin ən yüksək səviyyədə təmin edilməsinə olan zərurət şərtləndirmişdir. Buna görə də müstəqilliyinin ilk illərindən etibarən dövlət iqtisadiyyatın bərpasında və inkişafında birbaşa iştirak etmişdir. Bu məqsədlə böyük miqyaslı dövlət proqramları və strateji investisiya layihələri həyata keçirilmiş və bu proses davam etməkdədir. Bu proqramlar əsasən infrastrukturun, qeyri-neft sektorunun, müxtəlif sosial sahələrin inkişafına yönəldilmişdir. Dövlətin iqtisadiyyatda aktiv iştirakı ölkənin strateji inkişaf planlarının həyata keçirilməsinə və iqtisadi dayanıqlılığın gücləndirilməsinə şərait yaratmışdır. Bu çərçivədə həyata keçirilən islahatlar sahibkarlıq mühitinin yaxşılaşdırılmasına və investisiya cəlbediciliyinin artırılmasına yönəlmişdir. Xüsusilə sənaye və kənd təsərrüfatı sahələrində dövlətin dəstəyi sayəsində yerli istehsalın inkişafı və daxili bazarın qorunması təmin edilmişdir. Azərbaycan hökuməti infrastruktur layihələrinə böyük investisiyalar yatıraraq yolların, enerji obyektlərinin və su təchizatı sistemlərinin modernləşdirilməsinə xüsusi diqqət yetirmişdir. Dövlətin iqtisadi proseslərdə aktiv iştirakı işsizlik səviyyəsinin azaldılmasına və yeni iş yerlərinin yaradılmasına müsbət təsir göstərmişdir. Sosial rifahın artırılması məqsədilə səhiyyə, təhsil və digər sosial xidmətlər sahəsində bir sıra dövlət proqramları həyata keçirilmişdir. Ölkənin maliyyə sisteminin sabitliyini təmin etmək üçün bank sektoru və vergi siyasətində islahatlar aparılmışdır. Xarici investisiyaların cəlb olunması üçün hüquqi bazanın təkmilləşdirilməsi və investorlar üçün əlverişli şəraitin yaradılması istiqamətində addımlar atılmışdır. Dövlətin strateji iqtisadi planlaşdırması nəticəsində qeyri-neft sektoru sürətlə inkişaf etmiş və ölkənin ixrac potensialı artmışdır. Bütün bu tədbirlər Azərbaycanın iqtisadi müstəqilliyini gücləndirmişdir.

Təhsil sahəsində aparılan islahatlar nəticəsində beynəlxalq təhsil standartlarına uyğun yeni proqramlar tətbiq olunmuş və ixtisaslı kadr hazırlığına xüsusi diqqət ayrılmışdır. Bundan əlavə, iqtisadi siyasətin prioritetlərindən biri qeyri-neft sektorunun inkişaf etdirilməsidir [3]. Bu istiqamətdə sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat, xidmət kimi sahələrdə müxtəlif stimullaşdırıcı

və dəstəkləyici tədbirlər görülmüş, kiçik və orta sahibkarlığın bu prosesdə rolu artırılmışdır. İqtisadiyyatın şaxələndirilməsi məqsədilə ölkə iqtisadiyyatına yerli və xarici investisiyaların cəlb olunmasına da böyük diqqət ayrılmışdır. Regionlarda yeni sənaye parkları və aqroparkların yaradılması qeyri-neft sektorunun inkişafına təkan vermiş, yerli istehsalın artmasına və məşğulluğun yüksəlməsinə kömək etmişdir. Kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq üçün vergi güzəştləri və dövlət tərəfindən maliyyə dəstəyi kimi tədbirlər həyata keçirilmişdir. Turizm sektorunun inkişaf etdirilməsi məqsədilə yeni infrastruktur layihələri icra olunmuş, ekoturizm və mədəni turizmə xüsusi diqqət yetirilmişdir. Kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi məhsuldarlığın artmasına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə şərait yaratmışdır. Xarici investorlar üçün əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə hüquqi islahatlar aparılmış və investisiya mühitinin sabitliyi qorunmuşdur. Bütün bu tədbirlər Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf strategiyasının əsasını təşkil edərək rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına xidmət etmişdir. Ümumilikdə, dövlətin iqtisadiyyatın idarə edilməsində fəal iştirakı ölkənin dayanıqlı inkişafı və sosial rifahın gücləndirilməsi üçün zəmin yaratmışdır.

İqtisadiyyatın şaxələndirilməsi və davamlı iqtisadi inkişaf

Milli iqtisadiyyatın yuxarıda qeyd edilən əsas xüsusiyyətərini Azərbaycan üçün xarakterik xüsusiyyətlər hesab etmək olar. Bunlar Ümummilli lider Heydər Əliyevin 90-cı illərdə əsasını qoyduğu iqtisadi siyasətin həyata keçirilməsi ilə formalaşmış və sonrakı illərdə iqtisadi inkişafın əsasını təşkil etmişdir. Lakin, Azərbaycanda iqtisadi siyasətin son illərdə diqqət çəkən digər əsas cəhətlərindən biri onun adaptiv xarakterə malik olması və müasir dövrün cağırışlarına uyğun formada dəyişməsidir. İqtisadi siyasətin bu xarakteri onun strukturunun formalaşmasına da təsir etməkdədir. Bu ilk növbədə özünü iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunda iqtisadiyyatın payının artırılması istiqamətində görülən tədbirlərdə göstərir. Xüsusilə də 2015-ci ildə qlobal neft bazarında müşahidə edilmiş qiymət azalmalarından sonra bu istiqamətə daha çox diqqət yetirilir. Təsadüfi deyildir ki, bu dövrdə Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri qəbul edildi. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə əhatə edir [4]. Müəyyən edilən inkişaf strategiyalarında, tədbirlər planında, uzunmüddətli və hədəf baxışların müəyyən edilməsində əsas diqqət iqtisadiyyatın şaxələndirilməsinə və neft sektorundan asılılığının azaldılmasına yönəldilir. Bu tədbirlər çərçivəsində son illərdə kənd təsərrüfatı, sənaye, turizm, informasiya texnologiyaları, logistika və digər sahələrdə şaxələndirmə istiqamətində aktiv tədbirlər həyata keçirilir və bu sahələrin iqtisadiyyatda rolu artmaqdadır. Ümumilikdə, bu istiqamətdə görülən tədbirlərin nəticəsidir ki, qeyri-neft sektorunun iqtisadiyyatda rolu artmış və son illərdə inkişaf tempinə görə neft və qaz sektorunu üstələmişdir. Belə ki, 2024-cü ilin ilk 9 ayı ərzində əvvəlki ilin eyni dövrü ilə müqayisədə qeyri-neft-qaz sektorunda yaradılan ÜDM-in həcmi 7,1% artaraq 61,4 milyard manata çatmışdır ki, bu da ümumilikdə ÜDM-in 66%-ni təşkil etmişdir. Bu tendensiya Azərbaycanın iqtisadi inkişaf modelində qeyri-neft sektorunun rolunun davamlı olaraq artdığını və milli iqtisadiyyatın daha balanslı hala gəldiyini göstərir. Xüsusilə kənd təsərrüfatı sahəsində aparılan islahatlar və fermerlərə göstərilən dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinə və kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişlənməsinə şərait yaratmışdır. Sənaye sektorunda yaradılan sənaye parkları və məhəlləri yerli istehsalın artmasına, yeni iş yerlərinin açılmasına və ixrac qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Turizm sahəsində tətbiq edilən vergi və viza rejimi islahatları ölkəyə xarici turist axınını artıraraq bu sektorun ÜDM-dəki payının yüksəlməsinə imkan vermişdir. İnformasiya texnologiyaları və innovasiyalar sahəsində həyata keçirilən təşəbbüslər startap ekosisteminin inkişafına təkan verərək rəqəmsal iqtisadiyyatın formalaşmasına zəmin yaratmışdır. Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsi istiqamətində görülən işlər, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı ölkənin tranzit potensialını artırmışdır. Dövlətin iqtisadi diversifikasiya strategiyasına uyğun olaraq xarici investisiyaların qeyri-neft sektoruna yönləndirilməsi üçün

müxtəlif təşviq mexanizmləri və hüquqi islahatlar həyata keçirilmişdir. Bu tədbirlərin nəticəsi olaraq, qeyri-neft sektorunda yeni müəssisələr fəaliyyətə başlamış, ixrac yönümlü məhsul istehsalı genişlənmiş və ölkənin xarici ticarət balansında müsbət dəyişikliklər müşahidə edilmişdir. Bütün bu proseslər Azərbaycanın uzunmüddətli iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirildiyini və iqtisadiyyatın neftdən kənar sektorlarda daha dayanıqlı hala gəldiyini təsdiqləyir. Nəticə etibarilə, qeyri-neft sektorunun iqtisadiyyatda payının artması Azərbaycanın xarici iqtisadi risklərə daha davamlı olmasını təmin etməklə yanaşı, ölkənin sosial-iqtisadi inkişafına və əhalinin rifah səviyyəsinin yüksəlməsinə əhəmiyyətli töhfə verməkdədir.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri də dayanıqlı iqtisadi inkişaf modelinin tərkib hissəsi kimi qiymətləndirilir [5]. Bu bölgələrdə enerjiyə qənaət edən texnologiyalar, müasir nəqliyyat sistemləri və ekoloji cəhətdən təmiz infrastrukturların qurulması planlaşdırılır. Artıq bu ərazilərdə bir sıra yaşıl enerji layihələri icra olunmağa başlanmış və günəş panellərinin genişmiqyaslı quraşdırılması prosesi davam etdirilir.

Ümumilikdə, Azərbaycanın iqtisadi inkişaf modelində yaşıl iqtisadiyyatın ön plana çıxması ölkənin uzunmüddətli inkişaf perspektivlərini möhkəmləndirir. Hazırda icra edilən enerji islahatları və ekoloji təşəbbüslər Azərbaycanın regional liderlik mövqeyini daha da gücləndirməkdədir. Bu isə ölkəyə həm iqtisadi baxımdan əlavə gəlir mənbələri qazandırır, həm də onu iqlim dəyişikliyi ilə mübarizədə nümunəvi dövlətlərdən birinə çevirir.

Nəticə

Azərbaycanın milli iqtisadiyyatının strukturu onun sahib olduğu təbii resurslar, keçmiş tarixi inkişaf mərhələləri və dövlətin uzunmüddətli strateji yanaşmaları ilə formalaşmışdır. Bu strukturun formalaşmasında ölkənin zəngin neft və qaz ehtiyatları, müstəqillik əldə etdikdən sonra qarşılaşdığı iqtisadi çətinliklər və həmin dövrdən başlayaraq həyata keçirilən məqsədyönlü iqtisadi siyasət mühüm rol oynamışdır. Neft və qaz sektoru uzun illər iqtisadi artımın əsas drayveri kimi çıxış edərək, ölkənin maliyyə resurslarının əsas mənbəyinə çevrilmişdir. Bununla belə, iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək və qlobal bazarlarda neft qiymətlərinin dəyişkənliyindən asılılığı azaltmaq məqsədilə qeyri-neft sektorunun inkişafı prioritet istiqamət kimi müəyyən edilmişdir. Bu addımlar Azərbaycan iqtisadiyyatının şaxələnməsini təmin edərək, neftdən asılılığın azaldılmasına yönəlmiş uzunmüddətli strateji məqsədləri dəstəkləyir. Neft və qaz sektorunun dominantlığına baxmayaraq, hökumət iqtisadiyyatın daha müasir və müxtəlif sahələrdə inkişafını təşviq etmək üçün bütün resurslardan istifadə edir. Dövlətin qeyri-neft sektoruna olan diqqəti təkcə daxili tələbləri qarşılamaqla deyil, həm də beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaqla bağlı olmuşdur. Bununla yanaşı, ölkənin iqtisadi inkişafında təhsil, texnologiya və yeni sənaye sahələrinin rolu getdikcə daha da artmaqdadır. Son dövrlərdə təhsil və innovasiyaların təşviqi də qeyri-neft sektorunun inkişafında mühüm amil olmuşdur.

Son illərdə həyata keçirilən iqtisadi siyasət qeyri-neft sektorunun inkişafına və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş tədbirləri ilə fərqlənir. Xüsusilə də, kənd təsərrüfatı, sənaye, turizm, informasiya texnologiyaları və logistika sahələrində aparılan islahatlar bu sahələrin iqtisadiyyatdakı rolunun əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarmışdır. Qeyri-neft sektorunun inkişafı, həmçinin, ölkə daxilində iqtisadi aktivliyi artıraraq regional inkişafı gücləndirmişdir. Bu isə öz növbəsində, iqtisadiyyatın daha dayanıqlı və şaxələndirilmiş strukturda inkişaf etməsinə şərait yaratmışdır. İqtisadiyyatın bu şəkildə şaxələndirilməsi, həm də yerli istehsalın artırılması və ixracın genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Həmçinin, kənd təsərrüfatı sahəsində aparılan islahatlar və texnologiyanın tətbiqi nəticəsində Azərbaycanda ərzaq təhlükəsizliyi məsələsi də ön plana çıxmışdır. Bu inkişaf həm daxili bazar tələbatını ödəmək, həm də regional iqtisadi münasibətləri gücləndirmək məqsədini güdür. Həmçinin, informasiya texnologiyalarının inkişafı sayəsində ölkə dünyadakı rəqəmsal trendlərə qoşulmaqda və yeni biznes sahələri yaratmaqda mühüm addımlar atmışdır. Sənaye sahələrində müasir istehsal texnologiyalarının tətbiqi, həm də yeni iş yerlərinin yaradılmasına, əmək bazarının daha stabil olmasına şərait yaratmışdır.

Bu xüsusda, Azərbaycanın bərpaolunan enerji mənbələrinə keçid planları, karbon emissiyasının azaldılması və ətraf mühitin mühafizəsi istiqamətində atılan addımlar qlobal trendlərə uyğun olaraq ölkənin strateji hədəflərindən birinə çevrilmişdir. İşğaldan azad edilmiş ərazilərin böyük bərpaolunan enerji potensialı bu istiqamətdə yeni imkanlar açaraq, Azərbaycanın yaşıl enerji ixracatçısına çevrilməsinə töhfə verməkdədir. İşğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji sahəsində atılacaq addımlar Azərbaycanın gələcəkdə enerji bazarında daha güclü mövqe tutmasına xidmət edəcəkdir. Bu ərazilərdə qurulacaq yaşıl enerji layihələri təkcə yerli ehtiyacları qarşılamaqla qalmayacaq, həm də bölgənin ekoloji vəziyyətini yaxşılaşdırmağa, yerli əhalinin sosial-iqtisadi vəziyyətini möhkəmləndirməyə yönəlmiş olacaqdır. Bərpaolunan enerji sahəsində atılacaq addımlar ölkənin qeyri-neft sektorunun inkişafına əlavə təkan verəcək və beynəlxalq müstəvidə Azərbaycanı yeni bir enerji gücünə çevirəcəkdir. Bu, həmçinin Azərbaycanın daha güclü xarici ticarət əlaqələri qurmasına və enerjinin təmiz formalarını ixrac etməsinə imkan yaradacaqdır. Nəticədə, bu islahatlar ölkənin həm ekoloji, həm də iqtisadi dayanıqlığını təmin edəcəkdir.

Beləliklə, Azərbaycan iqtisadiyyatı müasir dövrün çağırışlarına cavab verən adaptiv xüsusiyyətlərə malikdir. Milli iqtisadiyyatın davamlı inkişafı, qeyri-neft sektorunun gücləndirilməsi, sosial rifahın artırılması və yaşıl iqtisadiyyatın təşviqi ölkənin strateji məqsədləri çərçivəsində həyata keçirilən siyasətin əsasını təşkil edir. Bu proses milli iqtisadiyyatın daha sabit, dayanıqlı və rəqabətqabiliyyətli bir sistem olaraq inkişafını təmin etməkdədir. Bu yanaşmalar Azərbaycan iqtisadiyyatını qlobal bazarda daha rəqabətqabiliyyətli edərək ölkənin beynəlxalq mövqeyini daha da gücləndirir. Dövlətin qarşıya qoyduğu məqsədlər çərçivəsində ölkə iqtisadiyyatı yalnız daxili inkişafla məhdudlaşmır, eyni zamanda regionda strateji bir oyunçu kimi öz yerini möhkəmləndirir. Qeyri-neft sektorunun inkişafı ilə yanaşı, yüksək texnologiyaların tətbiqi və sosial sahələrin gücləndirilməsi Azərbaycanın gələcəkdə daha dayanıqlı bir iqtisadiyyata sahib olmasına gətirib çıxaracaqdır. Bu isə öz növbəsində, həm sosial rifahı artıracaq, həm də iqtisadiyyatın daha şaxələnmiş və güclü bir strukturda inkişaf etməsini təmin edəcəkdir. Azərbaycanın strateji məqsədlərinə uyğun atılan addımlar ölkəni gələcəkdə daha qüdrətli bir iqtisadiyyat halına gətirəcəkdir. Eyni zamanda, bu inkişaflar Azərbaycanın xarici ticarət əlaqələrini genişləndirməyə, yeni bazarlara daxil olmağa və regional əməkdaşlığı artırmağa imkan verəcəkdir. Üstəlik, iqtisadiyyatın şaxələndirilməsi və sosial sahələrin inkişafı ölkə daxilində yeni iş yerlərinin yaradılmasına, həmçinin, yerli istehsalın artırılmasına şərait yaradacaqdır. Azərbaycanın iqtisadiyyatının müasir çağırışlara uyğun adaptivliyi onun davamlı və uzunmüddətli inkişafını təmin edəcək, xüsusilə də gənc nəsil üçün daha yaxşı iş və təhsil imkanları yaradacaqdır. Gələcəkdə müasir texnologiyalar və innovasiyaların tətbiqi, həmçinin, ekoloji cəhətdən təmiz sənayenin inkişafı ölkənin rəqabət qabiliyyətini daha da artıracaqdır. Beləliklə, Azərbaycan, regional və qlobal iqtisadiyyatın ayrılmaz bir hissəsi olaraq, dünya miqyasında daha böyük təsir gücünə sahib olacaqdır.

ƏDƏBİYYAT

1. Azərtac. Son 20 il ərzində Azərbaycanda ÜDM 4 dəfə artıb. https://azertag.az/xeber/son_20_il_erzinde_azerbaycanda_udm_4_defe_artib-2798719
2. Banker.az. 2018-ci ildə neft-qaz məhsullarının ixracda payı artaraq 91%-i ötüb. https://banker.az/ot%C9%99n-il-%C9%99rzind%C9%99-neft-qaz-m%C9%99hsullarinin-ixracda-payi-artib-r%C9%99qml%C9%99r/
3. Bayramov V.. Azərbaycanda qeyri-neft sektorunun inkişafına prioritet istiqamət kimi diqqət yetirilir, Xalq Qəzeti, http://anl.az/down/meqale/xalqqazeti/2017/iyul/549624.pdf
4. E-qanun.az. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://e-qanun.az/framework/34254
5. Qasımlı V., M.Talıbova, G.Quliyeva, A.Müseyibov, F.Mirzəyev. Rəqəmsal İqtisadiyyat. Bakı, “Azprint”nəşriyyatı, 2023. https://ereforms.gov.az/files/publications/pdf/az/9d03c762a9342224168be0a2ffc4e26a.pdf

6. President.az. İlham Əliyev Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasimdə iştirak edib. https://president.az/az/articles/view/25789
7. Sadıqlı F.. Azərbaycan yoxsulluğa “yox” deyir. Azərbaycan Qəzeti. https://azerbaijan-news.az/az/posts/detail/azerbaycan-yoxsulluga-yox-deyir-1702590394
8. Sfera.az. Azərbaycan iqtisadiyyatında qeyri-neft-qaz sektorunun payı tədricən artır. https://sfera.az/iqtisadiyyat/138757/qeyri-neft-qaz-sektorunun-en-deyerli-saheleri-hansilardir/

Мубариз Мамедгусейн оглы Багиров
д.э.н, профессор
кафедра «Финансы и аудит»
Азербайджанского Государственного
Экономического Университета

Нурлан Ильхам оглы Абдуллазаде
Докторант
Азербайджанского Государственного
Экономического Университета
E-mail: nurlan.abdullazade@yahoo.com

Основные характеристики структуры национальной экономики

Резюме

Цель исследования - Целью исследования является изучение основных характеристик, влияющих на формирование структуры национальной экономики Азербайджана, роли нефтегазового сектора в экономическом развитии и мер, принимаемых для развития ненефтяного сектора, а также анализ влияния устойчивой и адаптивной экономической политики на долгосрочное развитие национальной экономики.

Методология - Исследование основано на анализе факторов, влияющих на формирование структуры национальной экономики, включая природные ресурсы, исторические этапы развития и государственную экономическую политику. Оно также включает сравнительный анализ статистических данных (ВВП, уровень бедности, секторальные доли и т. д.). Для процесса анализа использовались официальные источники и существующие исследования.

Практическая значимость - Исследование направлено на представление рекомендаций по будущей экономической диверсификации, развитию ненефтяного сектора и планированию политики, согласованной с целями устойчивого развития, путем изучения успешной экономической политики и структурных изменений, которые сформировали экономику Азербайджана.

Результаты - Результаты исследования показывают, что, хотя экономика Азербайджана развивалась на основе доходов от нефтегазового сектора, в последние годы растущая роль ненефтяного сектора, экономическая диверсификация и адаптивная экономическая политика, направленная на устойчивое развитие, создали более сбалансированную и устойчивую структуру.

Оригинальность и научная инновация - Это исследование всесторонне анализирует адаптивные структурные особенности экономики Азербайджана за последние десятилетия, развитие ненефтяного сектора, экономическую диверсификацию и последствия политики, направленной на устойчивое развитие. Такой подход дает полное представление о трансформации национальной экономики в ответ на современные вызовы.

Ключевые слова - экономика Азербайджана, ненефтяной сектор, экономическая диверсификация, устойчивое развитие, зеленая энергия.

Mubariz Mamedguseyn Bagirov
doctor of economics, professor
Department of "Finance and Audit"
Azerbaijan State Economic University

Nurlan Ilham Abdullazade
doctoral student
Azerbaijan State Economic University
E-mail: nurlan.abdullazade@yahoo.com

Key Features of the Structure of the National Economy

Summary

The purpose of the study - The aim of the research is to investigate the key features that influence the formation of Azerbaijan's national economy structure, the role of the oil and gas sector in economic development, and the measures taken towards the development of the non-oil sector, as well as to analyze the impact of sustainable and adaptive economic policies on the long-term development of the national economy.

Methodology - The research is based on the analysis of factors affecting the formation of the national economy structure, including natural resources, historical development phases, and government economic policies. It also involves a comparative analysis of statistical data (GDP, poverty levels, sectoral shares, etc.). Official sources and existing studies were used for the analysis process.

Practical significance - The study is aimed at presenting recommendations for future economic diversification, the development of the non-oil sector, and the planning of policies aligned with sustainable development goals by studying successful economic policies and structural changes that have shaped Azerbaijan's economy.

Results - The results of the study show that while Azerbaijan's economy has developed based on revenues from the oil and gas sector, in recent years, the increasing role of the non-oil sector, economic diversification, and adaptive economic policies aimed at sustainable development have created a more balanced and sustainable structure.

Originality and scientific innovation - This research comprehensively analyzes the adaptive structural features of the Azerbaijani economy in the last decades, the development of the non-oil sector, economic diversification, and the effects of policies aimed at sustainable development. This approach provides a thorough view of the transformation of the national economy in response to contemporary challenges.

Keywords - Azerbaijani economy, non-oil sector, economic diversification, sustainable development, green energy.